**Qanunsuz uduşlu oyunlar keçirilən obyektlər aşkar olunmuşdur**

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin iyun ayının 27-də və 28-də keçirdiyi operativ vergi nəzarəti tədbirləri zamanı Yasamal rayonu, Naxçıvani küçəsi, 9 ünvanında yerləşən, Babayev Kamran Namiq oğluna məxsus obyektdə qanunsuz olaraq kompüter vasitəsilə uduşlu oyunların təşkil olunduğu aşkarlanmışdır. Araşdırma nəticəsində K.Babayevin vergi uçotunda olmadığı və əhali ilə pul hesablaşmalarının aparılması qaydalarını pozaraq qanunsuz sahibkarlıqla məşğul olduğu müəyyən edilmişdir. Vergi əməkdaşları tərəfindən həmin obyektlərdən ümumilikdə 12 ədəd kompüter dəsti, stabilizator, nağd pul və müvafiq qeydlərin aparıldığı dəftər və bloknotlar, «qara mühasibat» sənədləri götürülmüşdür.

Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, ev 9-da və Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Xəlilbəy Xasməmmədov küçəsi, ev 3b ünvanda vergi nəzarəti tədbirləri həyata keçirilərkən Seyidov Əli Səfər oğluna məxsus «Çayxana» futbol klubunda və fiziki şəxs Həsənov Şahbaz Məhərrəm oğluna məxsus obyektdə qanunsuz mərc (totalizator) oyunlarının keçirildiyi müəyyən olunmuşdur. Tədbir zamanı Ə.Seyidovun vergi orqanında qeydiyyatdan keçmədiyi, nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl etmədiyi və bir nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Ş.Həsənova məxsus obyektin də qanunsuz sahibkarlıqla məşğul olduğu, iki nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi müəyyənləşdirilmişdir. Vergi əməkdaşları tərəfindən həmin obyektlərin qanunsuz fəaliyyətlərini təsdiq edən noutbuklar, kompüter dəstləri, «qara mühasibat» sənədləri, möhür və qəbzlər götürülmüşdür.